**Yaşıl Rəqəmsal Fəaliyyətlə bağlı mətbuat konfransı keçirilib**

COP29 çərçivəsində Yaşıl Rəqəmsal Fəaliyyətlə bağlı mətbuat konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda iqlim dəyişikliyi ilə mübarizədə güclü vasitə sayılan rəqəmsallaşmanın potensialından, dayanıqlı infrastrukturun inkişafına və ətraf mühitin yaxşılaşmasına müsbət təsirindən danışılıb.

Yaşıl rəqəmsal fəaliyyət təşəbbüsünün COP29 Sədrliyinin fəaliyyət gündəliyinə daxil olan qlobal təşəbbüsdən biri olduğu qeyd edilib.

Vurğulanıb ki, innovasiya və dayanıqlığa əsaslanan rəqəmsallaşma gələcək COP-larda prioritet olaraq qalmasını gerçəkləşdirərək davamlılığa yönələn çağırışdır.

Konfransda Yaşıl Rəqəmsal Fəaliyyət üzrə Bəyannamə və onun əhəmiyyəti barəsində məlumat verilib.

Eyni zamanda, konfransda qaz emissiyalarının azaldılmasında yeni texnologiyaların rolu vurğulanıb.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Yaşıl Rəqəmsal Fəaliyyət üzrə Bəyannamənin davamlı gələcək üçün vacib olduğunu deyib: "Artıq Azərbaycanda dövlət xidmətləri rəqəmsallaşdırılıb. Bütün sənəd mübadilələri rəqəmsal yolla reallaşır. Eyni zamanda, ölkədə nəqliyyat sahəsi və Bakı metrosu da rəqəmsal xidmətdən istifadə edir. Yaşıl Rəqəmsal Fəaliyyət üzrə Bəyannaməyə bu günədək minə yaxın rəqəmsal texnologiya cəmiyyətinin üzvü öz dəstəyini bəyan edib.

Bəyannamə sürətli rəqəmsallaşmanın ətraf mühitə mənfi təsirlərini yumşaltmaqla yanaşı, iqlimlə bağlı fəaliyyətin və davamlılığın artırılması üzrə əməkdaşlıq üçün çərçivə rolu oynayacaq".

Azərbaycan Xarici İşlər Nazirliyinin Beynəlxalq Təhlükəsizlik idarəsinin rəisi, COP29-un baş danışıqçısının müavini Samir Becanov Yaşıl Rəqəmsal Fəaliyyət üzrə Bəyannamənin iqlim dəyişikliyi ilə mübarizəyə verəcəyi dəstəyə diqqət çəkib: "Bu gün təqdim etdiyimiz bəyannamə öz dəstəkləyicilərini iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün rəqəmsal vasitələrdən istifadə etməyə, rəqəmsal infrastrukturun iqlim dəyişikliyinə davamlılığını artırmağa və rəqəmsallaşmanın ətraf mühitə təsirini azaltmağa məcbur edir. Bəyannamə artıq mindən çox rəqəmsal icma nümayəndəsinin, o cümlədən 90-dan çox ölkənin hökumətlərinin razılığını alıb".

**AZƏRTAC**
**2024, 16 noyabr**